# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

*(Əvvəli ötən sayımızda)*

**29 sentyabr.** Səhəri qəribə bir həyəcan içində açdım. Zarafat deyil, mən bu gün adlarını yaxşı tanıdığım, əsərlərini sevə-sevə oxuduğum istedadlı yazıçılar Anar, Elçin və Əkrəm Əyrislini ilk dəfə olaraq görmək imkanı qazanacaq və həm də onlarla yaradıcılıq görüşündə iştirak edəcəkdim.

Axşam saat 7 -nin yarısında Leninin adını daşıyan kitabxananın çılçıraqlar içində bərq vuran oxu zalı ağzına kimi ali məktəb qələbələri və bizim ədəbi birliyin iştirakçıları ilə dolu idi. Nəhayət, hamının səbirsizliklə gözlədiyi an gəlib çatdı, elanda adları yazılmış 3 hörmətli yazıçı və şair Ramiz Heydər zala daxil oldu. Salona toplaşmış gənclər əziz qonaqları gurultulu alqışlarla qarşıladı. Əvvəlcə dərnəyin istedadlı üzvlərindən biri olan Nüsrət Bayramov danışdı. O, görüşdə iştirak edən qələm sahiblərindən hər birinin yaradıcılığı haqqında məlumat verdi, əsərlərinin müasir həyatda, gənclərin müqəddəs ideallara məhəbbət ruhunda tərbiyə olunmasında müsbət rolundan söhbət açdı. Sonra hörmətli yazıçılar Anar, Elçin, Əkrəm Əyrisli çıxış etdi və oxucuların müxtəlif çeşidli suallarını cavablandırdı. Bundan sonra şair Ramiz Heydər danışdı və yeni şeirlərini oxudu. Alqışlar uzun müddət kəsilmək bilmirdi. Tədbir yüksək səviyyədə keçdi və böyük maraqla qarşılandı. Yataqxanaya qayıdarkən bildim ki, bu günkü tədbirin təşkilatçılarınından biri, Lenin adına APİ-nin filologiya fakültəsinin 2-ci kurs tələbəsi Firidun Qurbanov da Yeni Əhmədlidə yaşayır, çünki geriyə eyni avtobusda qayıtdıq. Onunla yaxından tanış olduq.

**5 oktyabr 1974.** Şənbə günüdür. Bu həftəni birinci növbədə işləmişəm. Birinci növbənin işi mənə nədənsə uzun, cansıxıcı və darıxdırıcı görünür. Axşamüstü bir qədər yazıb oxumaqla məşğul oldum. Əsgəri xidmətdə olan əmim oğlu İsrafilə məktub yazdım. Sonra yatmaq istədim, amma yuxum gəlmədi. Yenidən nə isə yazmaq istədim. Amma nə yazmalı? Qələmi götürüb yaxınlıqdakı qızlar yataqxanasında yaşayan Zoya adlı rus qızına ibarəli və dəbdəbəli sözlərlə dolu olan bir eşq məktubu yazdım . Məktubu rus dilində yazdım və mənə elə gəldi ki, rus dilini özümə görə pis bilmirəm. Amma bu işə qətiyyən barmaqarası baxmaq olmaz. Bir halda ki, bütün gələcək həyatımı, taleyimi ədəbiyyata, incəsənətə və bədii yaradıcılığa həsr etmək istəyirəm, onda rus dilini mükəmməl öyrənməli, görkəmli rus yazıçılarının əsərlərini orijinal oxumağı, bu dildən sərbəst şəkildə tərcümə etməyi bacarmalıyam.

**6 oktyabr 1974.** Bazar günü olduğu üçün axşamüstü yenə ədəbiyyat dərnəyinin məşğələsinə getdim, lakin bu günkü yığıncaq məni qətiyyən açmadı. Dərnəyin rəhbərləri olan Nəriman Həsənzadə və Seyfəddin Dağlı hələ bir dəfə də olsun məşğələləri idarə etməyə gəlməyiblər, bu cəhətdən də mən hələ ki, bu iki qələm əhlinin üzünü görə bilməmişəm.

**8 oktyabr.** Dünən axşam xoşagəlməz bir hadisə baş verdi. Sən demə, məktub yazıb eşq elan etdiyim rus qızının gəzdiyi oğlan var imiş. Oğlanı dünən axşam gördüm. Adına trapes deyilən enlibalaq şalvar geymişdi. Uzun saçları çiyinlərinə tökülmüşdü. Qırxılmış arıq, uzunsov sifətində nazik bığı vardı. Milliyyətcə azərbaycanlı oan bu oğlan məni axşam saat 9 radələrində 116 nömrəli orta məktəbin böyründə gördü. Görünür, kimsə məni uzaqdan göstərib nişan vermişdi. Bu vaxt böyrümdən keçən tanışlardan biri dedi ki,bu adam bayaqdan qəzəbli halda səni soruşub axtarır, deyəsən, qızına sataşmısan. Ona baş qoşmasan yaxşıdır. Vid-fasonundan yatıb- çıxmış adama oxşayır. Sonra gördüm ki, bu oğlan harasındansa yekə bir bıçaq çıxarıb üstümə cumdu. Mən təbii ki, bu dar məqamda ən düzgün çıxış yolu tapıb dabanıma tüpürdüm və götürüldüm. O da əlində bıçaq dalımca qaçmağa başladı. Biz binaların arasından yel kimi ötüb keçirdik. Bu mənzərəni görən adamlar qorxu və təşviş içində seyr edirdilər. Maraqlıdır ki, heç özümdə təngnəfəslik də hiss etmirdim. Bu qaçış nədənsə mənə ləzzət verirdi. Oğlan məni təqib etməkdən əl çəkmirdi, mən isə getdikcə ondan daha artıq uzaqlaşırdım. Nəhayət, beşmərtəbəli binaların arasından dolanıb ildırım sürətli ilə özümü yaşadığım yataqxananın giriş qapısından içəri saldım. Oğlan dalımca yataqxanaya girməyi faydasız bilib geri qayıtdı. Üçüncü mərtəbədə yerləşən otağıma qalxdım. Otaq yoldaşlarımdan heç biri yox idi. Qapını kilidləyib arxası üsrə çarpayıya uzandım və gözlərimi məchul bir nöqtəyə zilləyib uzun-uzadı düşüncələrə daldım. Babamız qoç Koroğlu belə yerdə deyib ki, qaçmaq da elə bir igidlikdir.

**24 noyabr 1974.** Bu gün yenə poeziya dərnəyinə getdim və ilk dəfə olaraq şair Nəriman Həsənzadənin dərnəyə gəldiyini gördüm. Bir insan və sənətkar kimi o mənə olduqca maraqlı təsir bağışladı. Mən bu adamdakı şairanəliyə, səmimi, mehriban, insanı münasibətə heyran qaldım.

**6 fevral 1975.** Bu gün Leninin adını daşıyan mərkəzi şəhər kitabxanasının oxu-zalında Böyük Vətən müharibəsində qazanılmış tarixi Qələbənin otuz illiyi ərəfəsində veteran yazıçıların iştirakı ilə gənclərin yaradıcılıq görüşü keçirildi. Zal ağzına kimi müxtəlif ali məktəblərin tələbələri ilə dolu idi. Görüşdə jurnalist Əbdül Yusifov, general mayor Mustafa Nuriyev, şair Ağacavad Əlizadə, "Dəli Kür" romanının müəllifi, yazıçı İsmayıl Şıxlı, Əbdülhəsən Ələkbərzadə, Hüseyn Abbaszadə, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov iştirak edirdi. Tədbiri giriş sözü ilə şair Nəriman Həsənzadə açdı. O, Böyük Vətən müharibəsinin cəhbələrində axıdılmış qanlardan, xalqımızın qazandığı misilsiz tarixi qələbələrdən söhbət açdı. Sonra bizim ədəbi birliyin fəal iştirakçısı, odlu-alovlu çıxışları ilə diqqəti cəlb edən gənc şair Zəlimxan Yaqub öz ürək sözlərini söyləyib şeirlərindən birini oxudu və gurultulu alqışlarla qarşılandı. Söz qocaman xalq yazıçımız Əbülhəsən Ələkbərzadəyə verildi.Yazıçı iştirakçısı olduğu Vətən müharibəsinin qəhrəmanı Ağaşirin Cəfərov haqqında danışdı və sözünü davam edərək dedi:

- Mənim anam 1919-cu ildə vəfat edib. Qoşunlarımız Sevastopolda vuruşarkən mən orada belə bir yuxu gördüm.Yuxuda gördüm ki, topların, mərmilərin olmadığı azad bir çəmənzardayam. Elə bu dəm gördüm ki, anam və ailəmizin digər üzvləri mənə sarı gəlirlər. Anam məni görən kimi qollarını geniş açıb qışqırdı: "Oğlum, gəl gedək mənim yanıma!" Cavabında dedim: "Yox, ana, sənin yanına gələ bilməyəcəm. Çünki müharibədir və mən burda daha çox lazımam. Elə bu zaman göy guruldamağa, ətrafı bürüyən partlayış səsləri getdikcə güclənməyə başladı. Mən dəli kimi qışqırıb yuxudan ayıldım. Gözlərimi açanda ətrafımda partlayan saysız-hesabsız mərmilərin gurultusunu eşitdim. Düşündüm ki, anam məni öz yanına, qəbrə çağırdı, amma mən getmədim. Elə bu andan etibarən sanki ürəyimə damdı ki, cəbhədə həlak olmayacağam və müharibədən evə sağ-salamat qayıdacağam. Bundan sonra hörmətli yazıçımız bir sıra cəbhə xatirələrini danışdı və müharibə-mövzusunda yazdığı əsərlərdən söhbət açdı.

Ə.Ələkbərzadə öz çıxışını başa vurduqdan sonra "Üfüqdə qarıltı" Respublika hərbi İdman oyunun komandanı, Respublika Mülki Müdafiə Qərargahının rəisi, general -mayor Mustafa Nuriyev çıxış etdi. O, xüsusi şəkildə vurğuladı ki, mən öz işimə, yəni, hərb peşəsinə ürəkdən bağlıyam. Həyatımı yenidən qurmalı olsam, şübhəsiz ki, yenə hərbi işdən başlayaram. O, 19 yaşında ikən batalyon komandiri olduğunu, bundan sonra cəbhəyə getdiyini, dinc quruculuq dövründə isə təkcə onun alayının 3 il ərzində 150 mindən artıq minanı və aviasiya bombasını tapıb zərərsizləşdirdiyini danışdı.

Məşhur "General" romanının müəllifi Hüseyn Abbaszadə çox maraqlı çıxış etdi və sözünün sonunda qeyd etdi ki, bu günkü dinc, xoşbəxt həyatımız üçün biz birinci növbədə Məlik Məhərəmmov kimi əsil xalq qəhrəmanlarına minnətdar olmalıyıq "Dəli Kür" romanının müəllifi İsmayıl Şıxlı da özünün cəbhə xatirələrini və 1945-ci ilin mayında böyük Qələbəni necə qarşıladıqlarını danışdı. Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov Pskovdan Stalinqrada kimi, oradan da Berlinə qədər döyüş yolu keçdiyini, döyüşlər ərzində düz 6 dəfə yaralandığını danışdı. O, qeyd etdi ki, təkcə Dnepr çayı uğrundakı vuruşmalarda 2,5 mindən artıq döyüşçüyə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Həmin adamlardan biri də mənəm. O,cahan savaşının dəhşətlərindən danışaraq bildirdi ki, müharibə gecələr adamın yol getdiyi halda yatıb yuxu görməsi, həlak olmuş sevgililərini gözləyən qızların həsrətli baxışı, günahsız körpələrin acı fəryadı, analaların yanıqlı ah-naləsi deməkdir. Jurnalist Əbdül Yusifov müharibə dövründə Moldaviya torpağında iki dəfə Həzi Aslanovla görüşdüyündən danışdı və qeyd etdi ki, Həzi insanı heyrətə gətirəcək dərəcədə incə yumora malik, həddindən artıq təvazökar, həssas və qayğıkeş bir insan idi. Şair Ağacavad Əlizadənin çıxışı isə onsuz da kövrəlmiş adamları daha da mütəəssir etdi. O,1920-ci ildə anadan olmuş, özündən 8 yaş böyük qardaşı Tofiq Əliyev barədə danışdı. Son dərəcə güclü poetik istedada malik olan bu gənc oğlanın təkcə "Gənc işçi" qəzetində 500-dən artıq şeiri çap olunmuşdu. Şeirləri həmçinin demək olar ki, o dövrdə çıxan qəzetlərin hamısında dərc edilirdi.Tofiq 21 yaşında könüllü surətdə cəbhəyə getmiş, rus dilini əla bildiyi üçün döyüşlərin qızğın çağında kiçik rütbəli zabitlərə dərs deməklə məşğul olmuşdu. O, 1944-cü ildə , həyatının çiçəkləndiyi, arzularına və sevgilisinə qovuşa bilmədiyi bir vaxtda cəbhədə qəhrəmancasına həlak olub.

Bundan sonra Ağacavad müəllim qardaşının cəbhədə çəkdirdiyi fotoşəkilləri bizə göstərdi. Fotoşəkillərin arxasında Tofiqin öz əli ilə rusca şeirlər yazılmışdı. Bundan sonra şair qardaşına həsr etdiyi bir şeirini oxudu və gurultulu alqışlarla qarşılandı. Beləcə gənclərə hədsiz dərəcədə xoş təsir bağışlayan bu tədbir gəlib öz sonuna yetişdi. Bundan sonra tədbirin təşkilində bilavasitə yaxından iştirak etmiş bizim "Tərənnüm" Ədəbi Birliyinin iştirakçıları qonaqlarla xatirə şəkli çəkdirdilər.

**30 Mart - 1975.** Bir-birini qovan günlər sürətlə ötüb keçməkdədir, artıq havadan da əsil bahar qoxusu duyulmaqdadır. Günəş yeri daha böyük hərarətlə qızdırır, yaşıllıqlar canlanmağa, ağaclar tumurcuqlamağa başlayır. Bazar günü olduğu üçün bu gün yenə bizim ədəbi birliyin növbəti məşğələsinin keçirildiyi məkana, yəni Mərkəzi Şəhər Kitabxanasına gəldim. Məclis olmadı, amma əvəzində kitabxanadan 70-80 metr aralıda yerləşən mərkəzi kitab passajında görkəmli qələm sahiblərinin iştirakı ilə kitabların satışı və müəlliflər tərəfindən oxuculara aftoqraf verilməsi mərasimi keçirildi. Ədəbi birliyin iştirakçıları olan digər gənc qələm sahibləri ilə birlikdə mən də tədbirin keçirildiyi məkana-yəni kitab passajına gəldim. Burada yazıçılardan Mir Cəlal, Hüseyn Abbaszadə, Nurəddin Babayev, şairlərdən Rasim Kərimli, İlyas Tapdıq, Adil Babayev, Nəriman Həsənzadə və başqaları var idu. Oxucular həm tanınmış qələm sahibləri ilə bilavasitə canlı ünsiyyət qurmaq imkanı qazanır, həm də aldıqları kitablara yerindəcə müəllif tərəfindən aftoqraf yazdırırdılar. Zənnimcə bu tipli görüşlərin keçirilməsi həm oxucular, həm də yazıçılar üçün çox faydalıdır, çünki, belə görüşlər zamanı oxucunun əsərə bəslədiyi münasibəti yazıçı bilavasitə əyani şəkildə görə bilir və təbii ki, belə görüşlərdən sonra yazıçı özünə qarşı daha yüksək məsuliyyət hiss etməlidir. Mən də bu maraqlı tədbirdə şair Adil Babayevin "Yolda görüş" şeirlər kitabını və Bayram Bayramovun "Fəhlə qardaş" romanını aldım və hər iki kitaba müəlliflər tərəfindən aftoqraf yazdırdım.



*(Davamı var)*

*Bayram AFURCALI*